# Yaxşı işçi necə tapmaq olar?

Bu sual dünyanın dörd bir yanında, bizneslə məşğul olan hamını düşündürür. Hətta çox zaman deyirlər ki, biznes düzgün adamları, düzgün addımlara həvəsləndirərmə sənətidir. Bəs Siz necə düşünürsüz, yaxşı işçini hardan tapmaq olar? Video blogda sözü gedən suala cavab verməyə çalışmışıq. Buyurun.

Adizesin videolarında Sizə danışdığım beyin anekdotu bir neçə dəfə səslənmişdir. Ümumiyyətlə hesab edirəm ki, müasir konsaltantlar içərisində Adizes ən faydalısıdır. Bilirsiniz, mənim konsultantlara qarşı fikirlərim mənfidir, amma yenədə deyim ki, Adizesdən öyrəniləcək çox şey var. Ən azı, kitablarından.

Yaxşı bəyinli işçi formalaşdırmaq üçün, sadəcə ağ beyin götürüb, onu şirkətinizə uyğun formada yetişdirmək, inkişaf etdirmək lazımdır. Dünyanın bir çox transmilli şirkətləri bu strateqiyadan istifadə edirlər, onlar işçini Ali məktəblərdən “0”dan götürür və addım-addım yetişdirməyə çalışırlar. Bu yol, uğurlu və düzgün olur. Bizim şirkətdədə son 2 ildir, mağaza rəhbərləri yalnız daha əvvəl bizdə satıcı olaraq işləməyə başlayanlardan təyin edilir. İnan ki, ən effektiv müdirlərdə məhz özümüzdən olan rəhbərlər olurlar.

Növbəti video bloglarımızda sözü gedən mövzunu dahada açmağa çalışacam.

ƏLAVƏ OXUMAQ ÜÇÜN:

- Biznes haqqında
- Dinlədiyim TOP5 musiqi
- Marketinq kommunikasiyaları barədə